Görüşdə tərəflər Azərbaycanla Belarusiya arasında təhsil əlaqələri, işgüzar əməkdaşlığın qurulması ilə əlaqədar fikir mübadiləsi aparıblar.

Misir Mərdanov səfiri səmimi salamlayaraq ölkələrimiz arasında münasibətlərin son illər inkişafı istiqamətində atılan addımlardan danışıb. Təhsil sahəsindəki əlaqələrə böyük önəm verdiyini açıqlayan nazir qonağa hazırda bu istiqamətdə aparılan işlər haqqında məlumat verib.

Cənab Paskeviç öz ölkəsinin təhsil sistemi, peşə təhsili müəssisələrinin vəziyyəti, ali məktəblərdə Boloniya prosesinə keçid üzrə iş aparılması barədə ətraflı məlumat verib.

Səfir 2009-cu ilin mayında Belarusiyada YUNESKO-nun dəstəyi ilə “Texniki-peşə təhsilinin modernləşdirilməsi və inkişafı” mövzusunda beynəlxalq konfrans keciriləcəyini bildirib, ölkəmizin də bu tədbirdə iştirakının məqsədəuyğunluğunu və dəvət olunduğunu qeyd edib.

Görüşdə qarşılıqlı əlaqələrin inkişafı üçün işçi qrup yaradılması, tələbə mübadiləsinin genişləndirilməsi, texniki peşə-təhsili müəssisələrində kadr hazırlığı, eləcə də digər məsələlər müzakirə olunub.